# Festivalın əlvan rəngləri



**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Astara Rayon İcra Hakimiyyətinin birgə təşkil etdikləri təhsil festivalı ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuşdur.**

Astara şəhəri dənizkənarı park-bulvar ərazisində başlanan festivalda Elm və Təhsil naziri Emin Əmrullayev, Gənclər və İdman naziri Fərid Qayıbov, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Milli Məclisin deputatları, tanınmış ictimaiyyət nümayəndələri, ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin rəhbərləri, müəllimlər, şagirdlər, valideynlər iştirak ediblər. Lənkəran-Astara Regional Təhsil İdarəsi, Lənkəran Rayon Mədəniyyət İdarəsi, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi tədbirə sanballı töhfələr hazırlamışdılar.

Festivalın keçirilməsində məqsəd özəl sektor və ölkə üzrə təhsilin inkişafı üçün digər maraqlı tərəflər arasında regionda əməkdaşlıq platformasının yaradılmasına dəstək verməkdir. Təqdimatlarla ali, orta ixtisas və peşə təhsil müəssisələri, eləcə də beynəlxalq, respublika idman yarışlarının və müxtəlif layihələrin qalibləri çıxış edib, düzgün ixtisas seçimi, təhsil kreditləri ilə bağlı məlumatlar verilib, xarici dillərdə dialoqlar aparılıb, kitab sərgisi və flaşmob nümayiş etdirilib, şagirdlərin musiqili çıxışları olub. Festivalda iştirak edən müəssisələr xidmət və məhsullarını nümayiş etdiriblər. Vətən müharibəsi iştirakçıları olan təhsil işçiləri ilə görüşlər xoş təsir bağışlayıb.

İcma və məktəbəqədər təhsil müəssisələri şagirdlərinin çıxışları da festivala xüsusi rəng qatıb, regionun peşə təmayüllü siniflərinin, istedadlı gənc kimyaçıların və “Aqrobiomüxtəliflik” müsabiqəsi iştirakçılarının, eləcə də “SABAH” alimləri və STEAM layihələri qaliblərinin təqdimatı da diqqət çəkib.

Elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib: “Ölkənin təhsil müəssisələrində çox müxtəlif, maraqlı layihələr icra olunur. Bu, insanların pozitivə köklənməsi baxımından önəmlidir. Ümumilikdə bugünkü səhnə bizim hamımızı sevindirdi. Gələcəkdə belə tədbirlərdən çox keçirəcəyimizə ümid edirəm. İnanıram ki, bu cür tədbirlər ilk növbədə şagirdlərin özləri üçün çox faydalıdır. Şagirdlər belə tədbirlərdən sonra daha motivasiyalı olub, öyrənməyə, hazırlıqlı olmağa, daha yaxşı vətəndaş olmağa cəhd göstərəcəklər”.

Festivalda iştirak edən aparıcı ali təhsil müəssisələri arasında Azərbaycan Dövlət Pedaqoji Universiteti özünün geniş stendi və təqdim olunan təhsil xidmətləri ilə xüsusilə fərqlənib. Son illər burada istər innovativ elmi-pedaqoji yanaşmaların tətbiqi, beynəlxalq əməkdaşlıq, istərsə də müasir tədris infrastrukturunun, laboratoriyaların yaradılması fonunda qəbul planının tam dolduğu haqqında məlumat verilərək, keçirilən festivalda da cəmiyyətdə pedaqoji ixtisaslara və ADPU-ya böyük marağın əks olunduğu diqqətə çatdırılıb. Stenddə universitetdə aparılan elmi-tədqiqatların nəticələrinin əks olunduğu kitablar, dövri-elmi jurnallar, ADPU-nun 100 illik yubileyinə həsr olunmuş silsilə əsərlər, reklam və məlumat materialları nümayiş olunub.

Xəzərin sahilindəki park-bulvara toplaşmış iştirakçılar təqdimatları maraqla qarşılayıblar. Festival boyunca iştirakçılar kitab sərgilərində iştirak edib, düzgün ixtisas seçimi, təhsil tələbə kreditləri və s. ilə bağlı məlumatlandırılıb.

Gənc nəslin intellektual səviyyəsinin yüksəlməsinə xidmət edən belə tədbirlərin paytaxtla yanaşı regionlarda keçirilməsini yüksək qiymətləndirilib, regionların inkişafına göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıq edilib.

***Ə.NƏCƏFXANLI, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 23 may.- S.15.